# Sumqayıt Daşkəndə qucaq açır

*Canlanır hər qarış yer Sumqayıtda*
*Xariqələr yaradır el Sumqayıtda.*



Azərbaycanın sənaye şəhərlərindən biri olan Sumqayıt haqqında sovet dövründə bəstələnən mahnının sözlərində belə deyilir. Bəli, bu şəhərin tikintisində təkcə Azərbaycanın deyil, Sovet İttifaqının hər yerindən insanlar iştirak edib, sözün əsl mənasında, xariqələr yaradırdılar. Burada İttifaq miqyaslı sənaye müəssisələri tikilir, yeni şəhər salınırdı. Onun şöhrəti ölkə hüdudlarını aşır, dünya miqyasında tanınırdı. Elə həmin vaxtlarda Sumqayıt bir neçə şəhərlə qardaşlaşdı da.

**(davamı 9-cu səhifədə)**



**(əvvəli 1-ci səhifədə)**

İndi isə dost ölkə Özbəkistanın Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana növbəti səfəri çərçivəsində dövlətlərarası imzalanan sənədlərə əsasən Sumqayıtın Daşkəndlə qardaşlaşması nəzərdə tutulur. Bu isə təsadüfi deyil, çünki Bakının yaxınlığında yerləşən və ölkənin ikinci şəhəri olan Sumqayıt ötən illərdə böyük uğurlar əldə edib, son dövrlərdə isə daha sürətlə inkişaf edir. 75 yaşlı Sumqayıt tarixi şəhər Daşkəndlə qardaşlaşmaq hüququ qazanıb.



Beləliklə, Sumqayıt indiyədək 13-dən artıq şəhərlə yaxın əlaqələr qurulub. Özbəkistanın paytaxtı, Mərkəzi Asiyada metropoliteni olan yeganə şəhər Daşkəndin əsasının e.ə. V-III əsrlərdə qoyulduğu güman edilir. Qədim mənbələrdə Çaç, Şaş, Caç, Şaşkənd adlarına rast gəlinir. Çaç müasir Daşkəndin ən qədim adıdır. Firdovsi "Şahnamə" əsərində bu şəhəri Çaç adlandırır. XVI əsrdən başlayaraq şəhər indiki adı ilə adlandırılır. Bölgənin əsas beynəlxalq nəqliyyat mərkəzi olan şəhərdə 1917-ci il inqilabı zamanı vandalizmdən və 1966-cı il zəlzələsindən sonra bənzərsiz memarlıq abidələrinin çoxu məhv olub. Burada daha çox sovet dövründə tikilən mədəniyyət abidələrinə rast gəlmək mümkündür. XVI əsrdə inşa olunmuş Kukeldaş Mədrəsəsi Kaffali Şaş mavzoleyi kimi də tanınır və ondan muzey kimi istifadə edilir. Burada yerləşən Qəst-İmam tikilisinə qeyri-müsəlmanların girişi qadağandır, digər ziyarətçilər isə buraya giriş üçün əvvəlcədən icazə almalıdırlar.

Daşkənd həm də sənaye şəhəridir. Burada müxtəlif sənaye müəssisələri fəaliyyət göstərir. Elə bu səbəbdən onu həm də "çörəkli şəhər" adlandırırlar. Bu mənada onun Azərbaycanın ən böyük sənaye mərkəzilə qardaşlaşması təbiidir.

Abşeron yarımadasında, Xəzər dənizinin qərb sahilində düzənlik ərazidə yerləşən Sumqayıt şəhərinin adının yaranması ilə bağlı 3 fərqli versiya var. Onlardan biri, "Sum qayıt" əfsanəsi yəqin ki, hamıya bəllidir. Tarixçilərin fikrincə müasir Sumqayıtın yerləşdiyi ərazidə qədim dövrlərdə midiyalılar məskunlaşıblar. Böyük Britaniyada nəşr olunan "The York Herald" qəzetinin 23 may 1877-ci il tarixli sayında Sumqayıtın adı çəkilib. Yazıda belə qeyd olunub: "Sumqayıtdan, yaxud Bakıdan Tiflisə yaxşı yol mövcuddur, Tiflisdən isə İrəvana". Müasir Sumqayıtın tikinti işlərinə sovet dövründə, 1938-ci ildə başlanılıb, lakin İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar işlər dayandırılıb və 1944-cü ildən yenidən davam etdirilib. Şəhərin tikintisində azərbaycanlılarla yanaşı, müharibədə əsir düşmüş almanlar da iştirak edib. 1949-cu ildə Sumqayıta şəhər statusu verilib. Burada ən çox kimya və metallurgiya zavodları tikilib, 1970-1980-ci illərdə yüngül və maşınqayırma sənayesi inkişaf edib. Onu da qeyd edək ki, 1959-cu ildən 2003-cü ilin iyul ayına kimi şəhərdə tramvay fəaliyyət göstərib. Üçmərtəbəli dəmir yolu vağzalı var. 2015-ci ildə bu dəmir yolu ilə Bakı-Sumqayıt marşrutu üzrə İsveçrənin "Stadler Rail Group" şirkətinin KİSS markalı ikimərtəbəli elektrik qatarları hərəkətə buraxılıb.

Ümumiyyətlə, şəhərlərin qardaşlaşması ölkələrin, xalqların bir-birinə yaxınlaşmasına xidmət edir. Bu çərçivədə edilən səfərlər, keçirilən tədbirlər xalqlara bir-birinin tarixi, mədəniyyəti, məişəti ilə yaxından tanış olmağa imkan yaradır. Sumqayıt və Daşkənd şəhərlərinin qardaşlaşması da Azərbaycanla Özbəkistan arasında münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasında mühüm rol oynayacaq. Bu iki ölkə arasında münasibətlər gündən-günə genişlənir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin ölkəmizə səfəri zamanı hər iki ölkə liderinin mətbuata bəyanatlarında da bu məqam xüsusi vurğulandı.

Azərbaycan Prezidenti İlham Əliyev Dövlətlərarası Şuranın iclası çərçivəsində ikitərəfli qarşılıqlı fəaliyyət məsələlərinin geniş spektrinin müzakirə edildiyini, münasibətlərin strateji, müttəfiqlik xarakterinin bir daha təsdiqləndiyini qeyd etdi, birgə layihələrin uğurla həyata keçirildiyini məmnunluqla vurğuladı: "Qarabağın bərpasına göstərdiyi köməyə görə xüsusi minnətdarlığımızı ifadə edirik. Özbəkistanın bu sahədə birinci ölkə, öz təşəbbüsü ilə Qarabağ bölgəsinin bərpasına dərhal yardım edən Prezident Mirziyoyev isə dünyada ilk lider olub. Sosial təhsil infrastrukturunun ilk obyekti məhz Özbəkistanın tikdirdiyi məktəbdir və mən Şavkat Miromonoviç ilə onun açılışını etmişik. O, özbək xalqının böyük oğlu Mirzə Uluqbəyin adını daşıyır və burada öz əcdadlarınnn torpağına qayıdan uşaqlar təhsil alır. ...Erməni işğalından azad edilmiş ərazilərdə ikinci mühüm layihə isə Xankəndi şəhərindəki tikiş fabrikidir... Biz buna görə çox minnətdarıq və bunu çox yüksək qiymətləndiririk".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev səmimi qəbul, qonaqpərvərlik üçün təşəkkürünü bildirərək Özbəkistanda Azərbaycanın uğurlarına ürəkdən sevindiklərini, diplomatiya və siyasətdə böyük nailiyyət əldə edildiyini, bugünkü səfərin tarixi xarakter daşıyacağını bildirdi: "Bu gün məmnuniyyətlə qeyd etmək istəyirəm ki, gələcək üçün çox böyük iddialı bir proqramımız var... Ötən ay Xivədə "Baxşı" müsabiqəsi keçirildi və Azərbaycandan gələn ansambl Qran-Pri qazandı. Bu da göstərir ki, biz birlikdə irəliləyirik... Bizim yaxşı nəticələrimiz var. Mən əminəm ki, gələcək üçün yaxşı perspektivlərimiz olacaq".

Təbii ki, Sumqayıtla Daşkəndin qardaşlaşması davamlı xarakter alan işlərə xüsusi ahəng qatacaq. Yeri gəlmişkən, qeyd edək ki, vaxtilə plansız şəkildə tikilən sənaye müəssisələrinin Sumqayıtın ekologiyasına vurduğu ziyan artıq aradan qaldırılır, köhnə müəssisələrin yerində yeni və müasir istehsal sahələri yaradılır, Sumqayıt Sənaye Parkı sərhədlərini genişləndirir. Bir sözlə, Sumqayıt inkişaf edir, müasirləşir, gözəlləşir və "çörəkli şəhər" Daşkəndə qucaq açır...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**